Ziraat Bank
Azərbaycan

**Arayış**

17 iyun 2026

"FM Consulting" MMC 2017-ci ildən etibarən "Ziraat Bank" ASC ilə əməkdaşlıq edir və bu müddət ərzində şirkət tərəfindən göstərilən qiymətləndirmə xidmətləri bankımız tərəfindən müsbət qiymətləndirilmişdir.

Əməkdaşlıq dövründə "FM Consulting" MMC özünü kifayət qədər operativ, dəqiq, məsuliyyətli və peşəkar qiymətləndirmə şirkəti kimi göstərmişdir. Şirkət tərəfindən təqdim edilən hesabatlar vaxtında hazırlanmış, şirkət qiymətləndirmə prosesi zamanı obyektiv yanaşma, peşəkar analiz və müvafiq standartlara uyğunluğun təmin edilməsinə çalışmışdır.

"FM Consulting" MMC müştərilərlə iş zamanı yüksək işgüzar etika nümayiş etdirmiş, müştəri maraqlarına diqqətlə yanaşmış, təqdim olunan məlumatların konfidensiallığını qorumuş və tapşırıqlara məsuliyyətlə yanaşmışdır.

Qeyd edilənlər "FM Consulting" MMC-ni kifayət qədər etibarlı və peşəkar tərəfdaş kimi xarakterizə etməyə əsas verir.

Hörmətlə,

İdarə Heyətinin Sədri Dr. Selçuk Demir

"Ziraat Bank Azərbaycan" ASC
Ziraat Bank Azərbaycan ASC
"Ziraat Bank Azerbaijan" OJSC

**Ziraat Bank Azərbaycan ASC**
AZ1122, Bakı şəh., Yasamal ray.,
Həsən bəy Zərdabi prospekti, 191
Tel.: (+994) 12 505 56 16